# MİRABOV RƏŞAD AKİF OĞLU



Mirabov Rəşad Akif oğlu 3 may 1975-ci ildə Mingəçevir şəhərində anadan olmuşdur. 1982-ci ildə 7 saylı Mingəçevir şəhər orta məktəbinə getmişdir. O, doqquzuncu sinfi bitirib axşam məktəbində oxuya-oxuya, atasının işlədiyi Mərziyə Davudova adına Mingəçevir Dövlət Dram Teatrında dərzi köməkçisi işləməyə başladı. 12 may 1993-cü ildə Mingəçevir şəhər Hərbi Komissarlığı tərəfindən Milli Orduya çağırıldı. O, əvvəlcə indiki H.Z.Tağıyev qəsəbəsi, sonra isə Səngəçalda və Şubanıda hərbi təlim keçdi, xüsusi təyinatlı hissədə kəşfiyyatçı-minaaxtaran peşəsinin sirlərinə dərindən yiyələndi. Bu ərəfədə torpaqlarımızın bir hissəsi işğal olunmuşdu. Rəşadın xidmət etdiyi hərbi hissə 1994-cü ilin yanvarında Tərtər bölgəsinə, oradan isə Füzuliyə - gərgin döyüşlərə gedən zonaya göndərildi. Hərbi hissə Füzuli bölgəsində bir neçə əməliyyatda iştirak etdi. O, yenidən Tərtərə qayıtdı. Ölkədə atəşkəs elan olunduqdan sonra isə Bakıya - əvvəllər xidmət etdiyi hissəyə qayıtdı. 1995-ci il 13-17 mart hadisələri zamanı bir dəstə qiyamçı dövlət çevrilişinə cəhd edirdi. Mirabov Rəşad bu qiyamçıların zərərsizləşdirilməsi zamanı qəhrəmancasına həlak oldu. Mingəçevir şəhərinin Şəhidlər Xiyabanında dəfn edilmişdir. Subay idi. Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995-ci il tarixli 307 saylı fərmanı ilə Mirabov Rəşad Akif oğluna ölümündən sonra “Azərbaycanın Milli Qəhrəmanı” adı verilmişdir. 1997-ci ildən etibarən təhsil aldığı 7 saylı orta məktəbə onun adı verilmişdir. Məktəbin qarşısında və Şəhidlər muzeyində büstü qoyulmuşdur.